

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 209 (20.863)

7 noyabr 2013-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikasında sahibkarlıq potensialının gücləndirilməsinə dəstək

### *Bu mövzuda 24-25 oktyabr tarixlərində keçirilən seminar dünən öz işini davam etdirməyə başlayıb*

***Dünən Naxçıvan şəhərindəki "Təbriz" mehmanxanasında "Naxçıvan Muxtar Respublikasında sahibkarlıq potensialının gücləndirilməsinə dəstək" mövzusunda seminar keçirilib. Seminarın ilk məşğələsi kiçik və orta sahibkarların maliyyə və kredit mənbələrindən, kiçik biznesin maliyyələşdirilməsinin alternativ metodlarından istifadə imkanlarına həsr edilib.***

Tədbiri ATƏT-in Bakı Ofisinin əməkdaşı Matilde Nquyen Raniqel açıb. Qeyd olunub ki, son illər ATƏT-in Bakı Ofisi iqtisadi idarəetmənin keyfiyyətini artırmaq, Bakıda və Azərbaycanın regionlarında əlverişli biznes mühitini təşviq etmək üçün normativ hüquqi məsələlərin yaxşılaşdırılması istiqamətində dəstək tədbirləri həyata keçirməyi diqqət mərkəzində saxlayır. Naxçıvan Muxtar Respublikasında ilk belə tədbir 2009-cu ilin mayında keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Abbas Babayev muxtar respublikada güclü sahibkarlar təbəqəsinin formalaşdığını diqqətə çatdırıb, bunun təməlində hərtərəfli dövlət dəstəyinin dayandığını bildirib.

Qeyd olunub ki, sahibkarlıq subyektlərinin qeydiyyatı çərçivəsində 2013-cü ilin ötən dövrü ərzində muxtar respublika üzrə 22 hüquqi və 925 fiziki şəxs qeydiyyata alınıb. 2013-cü ilin yanvar-sentyabr ayları ərzində bank və kredit təşkilatları tərəfindən sahibkarlara 33 milyon 196 min manatdan artıq həcmdə kreditlərin verilməsi təmin olunub.



Seminarda "Bank of Azerbaijan" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının rəhbəri Anar Məmmədovun "Biznesimizin sağlam maliyyə idarəetməsinin əsas yolları" mövzusunda məruzəsi dinlənilib. Bildirilib ki, maliyyə idarəetməsinin əsas yollarından biri düzgün maliyyələşdirmədir. Şərti olaraq maliyyələşdirməni özünümaliyyələşdirmə, kredit yolu ilə maliyyələşdirmə, lizinq, büdcə maliyyələşdirməsi təşkil edir. Özünümaliyyələşdirmə ən əlverişli yoldur. Bu, fəaliyyətdə olan müəssisələr üçün daha münasibdir və müəssisə daxili imkanlar hesabına maliyyələşdirilir. Əsas mənbələr müəssisənin gəlirləri, amortizasiya ayırmaları, daxili ehtiyatlar və sairdən ibarətdir. Özünümaliyyələşdirmənin üstünlükləri ondan ibarətdir ki, müəssisə müflisləşmə riski ilə üzləşmir, gəlir sahibkara qalır, cəlb edilmiş vəsaitlər üzrə xərclər olmur.

Sonra mövzu ətrafında müzakirələr aparılıb, tədbir iştirakçılarının sualları cavablandırılıb.

Seminarda Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondunun baş məsləhətçisi Orxan Abdinov çıxış edərək muxtar respublikada biznes mühitinin yaxşılaşdırılması və sahibkarlığın inkişafı istiqamətində görülən işlərdən danışıb.

Sonra "FINCA" Bank Olmayan Kredit Təşkilatının Naxçıvan filialının əməkdaşı Elçin Məmmədovun "Kiçik biznesin maliyyələşdirilməsinin əsas mənbələri, kiçik və orta sahibkarların maliyyələşdirilməsi üzrə alternativ metodlardan istifadə perspektivləri" və "Yüksək miqdarda borc toplanması barədə xəbərdarlıq və məsləhət" mövzularında məruzəsi dinlənilib.

Günün ikinci yarısında seminar öz işini davam etdirib.

Seminara sabah yekun vurulacaq.

Qeyd edək ki, seminarı Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyi, Sahibkarlar Konfederasiyası, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi ATƏT-in Bakı Ofisi ilə birgə təşkil edib.

**Muxtar MƏMMƏDOV**

## Muxtar respublikada aktiv məşğulluq tədbirlərinə xüsusi önəm verilir

Əhalinin məşğulluğu istiqamətində muxtar respublikada məqsədyönlü tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikasında əmək ehtiyatlarından daha effektiv istifadə etmək və əhalinin səmərəli məşğulluğunu təmin etmək məqsədilə "Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" təsdiq edilib və bu proqram uğurla icra olunub. Əhalinin məşğulluğunun təmin olunmasında Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti də mühüm rol oynayır. Son 5 ildə məşğulluq mərkəzləri tərəfindən keçirilən əmək yarmarkalarında 4304 nəfər işlə təmin olunub, 140 nəfər peşə hazırlığı kurslarına, 462 nəfər haqqı ödənilən ictimai işlərə cəlb edilib. Cari ilin ötən dövrü ərzində şəhər və rayonlarda 4 dəfə əmək yarmarkaları keçirilib. Bu yarmarkalara, ümumilikdə, 437 müəssisə və təşkilat tərəfindən 2824 boş iş yeri çıxarılıb, 904 nəfər peşə və ixtisasına uyğun işlə təmin olunub, 7 nəfər peşə hazırlığı kurslarına, 95 nəfər ictimai işlərə cəlb edilib. 2007-2013-cü illərdə təhsil işçiləri üçün təşkil edilən əmək yarmarkalarında 946 nəfər müxtəlif təhsil ocaqlarındakı vakant yerləri tutub. 2009-2013-cü illərdə səhiyyə sahəsində çalışmaq istəyənlərdən 114 nəfəri müvafiq əmək yarmarkaları vasitəsilə iş tapa bilib. Cari ilin avqust ayında səhiyyə işçiləri üçün keçirilən əmək yarmarkasında 16 nəfər müvafiq işlə təmin olunub. Sentyabr ayının birinci həftəsində keçirilən təhsil yarmarkasında isə 111 pedaqoji kadr muxtar respublikanın müxtəlif təhsil ocaqlarında işləmək üçün göndəriş alıb.

Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, xidmət tərəfindən şəhər və rayon məşğulluq mərkəzlərinin fəaliyyətlərinin gücləndirilməsi üçün əlavə tədbirlər görülməkdədir. Dövlət Məşğulluq Xidmətinin rəisi Sevindik Vəliyev söhbət zamanı bildirdi ki, bu məqsədlə əmək və icra intizamı məsələləri ön plana çəkilib, məşğulluq işçilərinin vəzifə funksiyalarının məsuliyyətlə yerinə yetirilməsinə diqqət artırılıb. Aktiv məşğulluq tədbirlərinin mühümlüyü nəzərə alınaraq, bu tədbirlərin effektiv təşkili üçün məşğulluq işçilərinin bir sıra seminar və işçi müşavirələri keçirilib. Məşğulluq mərkəzlərinin rəhbərlərinin və məsul işçilərinin diqqəti, ilk növbədə, boş iş yerlərinin toplanmasına, işaxtaran vətəndaşların işə düzəlməsinə daha aktiv dəstək göstərilməsinə yönəldilib. Məşğulluq mərkəzləri tərəfindən mütəmadi olaraq bölgələrdə və muxtar respublika paytaxtında əmək yarmarkaları təşkil olunur, işaxtaran insanların bu yarmarkalarda aktiv iştirakına xüsusi diqqət yetirilir.

Məlumat üçün bildirək ki 2003-cü il oktyabr ayının 1-dən 1 oktyabr 2013-cü il tarixədək muxtar respublikada 58876 yeni iş yeri yaradılıb ki, bunun da 42430-u və ya 72,1 faizi daimi iş yerləridir. 2013-cü ilin yanvar-sentyabr ayları ərzində yaradılmış 1767 yeni iş yerinin 1632-si və ya 92,4 faizi daimi iş yerlərinin payına düşür.

**Səbuhi HÜSEYNOV**

## Əliabad qəsəbəsi abadlaşır

***2001-ci ildə Naxçıvan şəhərinin inzibati ərazi bölgüsündə dəyişiklik edildi. O zaman bir hissəsi Babək rayonuna, bir hissəsi Naxçıvan şəhərinə tabe olan indiki Əliabad qəsəbəsi yaradıldı və Naxçıvan şəhərinin inzibati ərazi bölgüsünə daxil olundu.***



2009-cu ildə qəsəbədə uşaq musiqi məktəbi, uşaq bağçası, qəsəbə mərkəzi inşa olunaraq istifadəyə verildi. Açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bir məqama diqqət çəkərək qeyd etmişdi ki, "Əliabad qəsəbəsinin yaradılması vacib məsələ idi. 2001-ci ilə kimi qəsəbənin bir hissəsi şəhərə, kənd hissəsi isə Babək rayonuna tabe olduğundan idarəetmə çətin idi. Ərazidə kommunal xidmətlərin həyata keçirilməsi də problemlər yaradırdı. Ərazinin qazla, elektriklə, telefonla, digər xidmətlərlə təminatında da çətinliklər var idi. 2001-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Milli Məclisi qarşısında qaldırdığı məsələyə əsasən, Əliabad kəndi ilə Naxçıvan şəhərinə tabe olan mənzil istismar sahəsi birləşdirilərək Əliabad qəsəbəsi yaradıldı".

Əliabad qəsəbəsi bu günlərdə xüsusi yaraşığa, görkəmə qovuşub. Bir neçə aydır ki, qəsəbədə genişmiqyaslı quruculuq və abadlıq işləri aparılır.

Naxçıvan şəhərinin abadlaşmasında, yenidən qurulmasında böyük pay sahibi olan Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin kollektivi Əliabadın, deməli olar ki, hər qarışında səliqə-sahman yaratmaqla məşğuldur.

İstismar müddəti bitən, yararsız hala düşən yollar yenidən asfaltlanır, küçə və meydanlar səliqəyə salınır, parklar yenidən qurulur, piyada yolları yerli tikinti materiallarından istifadə olunmaqla yenilənir.

Ümumiyyətlə, bir neçə aydır, davam edən və Əliabadın hər qarışında duyulan qaynar iş prosesi ilə yaxından tanış olmaq üçün qəsəbəyə yollandıq.

Müasir tikinti texnikalarının birbirinə qarışan səs-küyü ətrafı bürümüşdü. Buna baxmayaraq, sakinlər qısa zaman sonra burdakı rahat həyatın qarantı olacaq bu texnikaların iş prosesindən razı görünürdülər. Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin məsul işçisi, iş icraçısı Şöhrət Qoçəliyevlə iş prosesini izləyə-izləyə söhbət etdik. Bildirdi ki, idarənin kollektivi təkcə Əliabadın abadlığıyla kifayətlənmir, hazırda şəhərin bir neçə yerində abadlıq, təmir işləri həyata keçirir.

Ş.Qoçəliyev Əliabadda görülən işlər barədə ətraflı məlumat verərək aşağıdakıları söylədi:

– Yayın ortalarından başlayaraq kollektivimiz Əliabadda genişmiqyaslı abadlıq və təmir işlərinə başlayıb. Buradakı ictimai yaşayış binalarının həyətlərində səliqə-sahman yaratmaqla məşğuluq. Hazırda 7 çoxmərtəbəli yaşayış binasının elektrik, rabitə xətləri yenilənib. Müasir dünya standartlarına uyğun olaraq, həmin xətlərin yeraltı çəkilişi tamamlanıb.

Binaların həyətindəki parklarda uşaq-əyləncə qurğuları quraşdırılıb. Bundan əlavə, yaşıllıq zolaqları salır, qəsəbənin mərkəzi və mərkəzdən ayrılan küçələrinin asfaltlanmasını həyata keçiririk. Demək olar ki, işlərin böyük əksəriyyəti yekunlaşıb.

Ərazini gəzdikcə idarənin usta və fəhlələrinin həvəslə, əzmkarlıqla çalışmaları diqqətimizdən yayınmır. Bir maraqlı məqamı da xüsusi qeyd etmək istəyirəm. Belə ki, Əliabaddakı bir çox fərdi evlərin fasadları da suvanaraq yaraşıqlı görkəmə salınır. Həmin evlərin sakinləri dövlətin bu diqqətini xeyirxahlıq nümunəsi kimi minnətdarlıqla qiymətləndirirlər. Qərbi Azərbaycandan – doğma yurdundan Naxçıvan şəhərinə pənah gətirən Əliabad qəsəbə sakini, burada hər cür şəraiti olan evlə təmin edilən Qurban Babayev bildirdi ki, muxtar respublikanın hər bir guşəsi dövlət qayğısı əhatəsindədir. Bu gün Əliabad qəsəbəsi müasir yaşayış məntəqəsinə çevrilib. O, bir ağsaqqal kimi qəsəbə sakinləri adından dövlətimizə minnətdarlığını bildirdi.

Qəsəbənin ictimai yaşayış binalarına da yaraşıqlı görkəm verilir. Belə ki, təmirinə bu ilin mart ayından başlanılmış Əcəmi küçəsindəki binalarda işlər başa çatmaq üzrədir. Binaların dam örtüyü dəyişdirilib, pəncərələr yeniləri ilə əvəz edilib, fasad hissələrinin üzlənməsi yekunlaşıb, dəhlizlər təmir olunub. Hər binada mərkəzi antena sistemi quraşdırılıb. "Cahan İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılan təmir işləri yaxın vaxtlarda yekunlaşacaq.

Əliabadın abadlaşması sadalananlarla bitmir. Belə ki, qəsəbədəki 16 nömrəli tam orta məktəbin binası da yenidən qurulur. Artıq məktəb binasında işlər yekunlaşmaq üzrədir. "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən görülən inşaat işləri çərçivəsində qəsəbə məktəbinin ikimərtəbəli binasına əlavə bir mərtəbə də artırılıb. Həmçinin məktəbin sağ və sol hissələrində əlavə korpuslar ucaldılıb. 864 şagird yerlik olacaq məktəbdə işlər bitmək üzrədir. Hazırda kollektiv həyətyanı sahədə idman meydançasının və yaşıllıq zolağının salınması ilə məşğuldur.

Əliabadda görülən işlərdən biri də qəsəbə boyu bütün evlərin su və kanalizasiya sisteminin yenidən qurulmasıdır. Nəinki ictimai yaşayış binaları, bütün həyət evləri su və kanalizasiya xətləri ilə təmin olunub. Qarşıdakı aylarda əliabadlıların bu problemləri də öz həllini tapacaq.

Bütün bu görülən işlərin mərkəzində muxtar respublikada dövlət tərəfindən qarşıya məqsəd kimi qoyulan vətəndaşların iş şəraitini yüksək səviyyədə təmin etmək, əhalinin abad, rahat və yaraşıqlı binalarda yaşayışına şərait yaratmaq, uşaqların və gənclərin, yaşlıların, ümumiyyətlə, insanların səmərəli istirahətini təşkil etmək dayanır. Təbii ki, tarixilikə öyünən Naxçıvan şəhərinin qəsəbə və məhəllələrinin müasir səviyyədə abadlaşdırılması və gözəlləşdirilməsi də əsas məqsədlərdən birdir.

**Elxan MƏMMƏDOV**

*İstehsal müəssisələrimiz*

# Naxçıvan Sement Zavodunun istehsal gücü artırılır

***Yeraltı və yerüstü sərvətlərlə zəngin muxtar respublikamızın təbii resurslarından səmərəli istifadə məqsədilə daha bir nəhəng layihə reallaşdırılmış, 2012-ci ildə "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının Naxçıvan Sement Zavodunun tikintisi uğurla başa çatdırılmışdır.***

Əvvəlcə muxtar respublika ərazisində "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının mütəxəssisləri tərəfindən sement istehsalı üçün xammal mənbələrinin müəyyən olunması məqsədilə geoloji axtarışlar aparılmışdır. Yataqlarda lazımi xammal aşkar olunduqdan sonra onun tərkibi Türkiyənin Sement İstehsalçıları Birliyi tərəfindən və Çin Xalq Respublikasının bu sahə üzrə ixtisaslaşmış laboratoriyalarında yoxlamadan keçirilmişdir. Laboratoriyalardan müsbət rəylər alındıqdan sonra Kəngərli rayonunda 150,6 hektarlıq ərazidə yeni Sement Zavodunun tikintisinə başlanılmışdır. Öz əhəmiyyətinə və çəkilən xərclərin miqyasına görə son 20 ilin ən böyük layihələrindən olan zavodun inşası "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının təcrübəli mütəxəssisləri və inşaatçıları tərəfindən həyata keçirilmişdir. Burada istehsal sahələri, xammal və hazır məhsulların saxlanılması üçün anbar, inzibati və iaşə xidməti binaları tikilmiş, Naxçıvan-Sədərək magistralından zavodadək 2 kilometr məsafədə yeni avtomobil yolu çəkilib asfalt-beton örtük salınmış, yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, hazır məhsulun daşınmasına da hərtərəfli şərait yaradılmışdır.

30 may 2012-ci il tarixdə muxtar respublikamızda səfərdə olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Sement Zavodunun açılış mərasimində iştirak etmişdir. Ölkə başçısı Böyük İpək Yolunun bir hissəsi olan Naxçıvan-Culfa magistral avtomobil yolunun açılış mərasimindəki çıxışında regionumuzda həyata keçirilən digər infrastruktur layihələrlə yanaşı, Naxçıvan Sement Zavodunun da ölkəmiz üçün mühüm əhəmiyyətli sahə olduğunu bildirərək demişdir: ***"İnşaat materialları, demək olar ki, artıq daxili imkanlar hesabına formalaşır. Bu gün Sement Zavodunun açılışını qeyd etmişik. Bu, məni çox sevindirir. Çünki bu, ölkəmiz üçün lazımdır... Naxçıvan Sement Zavodu sementə olan ehtiyacı tam şəkildə ödəməyə imkan verəcək və idxaldan asılılıq aradan qaldırılacaq"***.

Çin və Türkiyə istehsalı olan avadanlıqların quraşdırıldığı ağır sənaye müəssisəsində 18 əsas istehsal bölməsi mövcuddur. Bütün xammal növləri muxtar respublikanın yataqlarından əldə olunur. Əsas xammal olan əhəngdaşı, mergel və köməkçi xammallar – dəmirli gil Kəngərli rayonunun Çalxanqala, kvars Şərur rayonunun Gümüşlü, gips isə Babək rayonunun Nehrəm kəndləri yaxınlığındakı yataqlardan çıxarılır. Məlumat üçün qeyd edək ki, zavodda sement müasir quru üsulu ilə istehsal edilir. Region ölkələrində bu üsulla sement istehsal edən çox az müəssisə var. Quru üsulla sement istehsalı zavodun yanacaq sərfini minimuma endirir. İstehsal edilən sementin keyfiyyəti muxtar respublikaya idxal olunan eyni məhsullardan olduqca yüksəkdir. Artıq istehsal edilən məhsul ölkəmizin müxtəlif regionlarına, eləcə də Türkiyə və Gürcüstan respublikalarına göndərilir.

İstehsal prosesinin konveyer üsulu ilə təşkil edildiyi müəssisədə texnoloji proseslərə ciddi əməl edilir. Blok şəklində müəssisəyə daxil olan xammal müxtəlif mərhələlərdən keçməklə kiçik ölçülərdə doğranıb qarışıqlarla birlikdə 1400-1600 dərəcə istilikdə bişirilir. Hazır məhsul sonrakı mərhələdə üyüdülüb 50 kiloqramlıq kisələrdə qablaşdırılaraq "Naxçıvan sement" əmtəə nişanı ilə satışa çıxarılır. Naxçıvan Sement Zavodu "CE" keyfiyyət nişanına layiq görülmüşdür. Bu keyfiyyət nişanı məhsulun Avropa tələblərinə uyğunluğunun göstəricisidir. Yeri gəlmişkən bildirək ki, keyfiyyət nişanı Avropa Birliyində akreditasiyadan keçmiş Türk Standartlar İnstitutunun mütəxəssisləri tərəfindən istehsal prosesindəki avadanlıqlar, keyfiyyətə nəzarət cihazları, istehsal prosesində əməyin və ətraf mühitin mühafizəsi nəzərə alınaraq qiymətləndirilmişdir. Eyni zamanda Türk Standartlar İnstitutu tərəfindən keyfiyyətin yoxlanılmasında istifadə edilən bütün ölçü cihazlarının və avadanlıqların da kalibrlənməsi aparılmışdır. Onu da qeyd edək ki, Avropa tələblərinə uyğunluğun göstəricisi olan bu keyfiyyət nişanının verildiyi hər bir müəssisənin məhsulu Türk Standartlar İnstitutu tərəfindən 6 aydan bir həmin institutun tikinti materialları laboratoriyasında kimyəvi və fiziki keyfiyyət göstəriciləri baxımından yoxlanılır.

Zavodda istehsal xəttinə daxil olan xammalın, qatqı maddələrinin, istehsal olunan məhsulun keyfiyyətinə nəzarət müasir avadanlıqlarla təchiz edilmiş laboratoriyada həyata keçirilir. Burada quraşdırılan avadanlıqlarla istehsalat xəttindən saatda bir dəfə nümunələr alınaraq kimyəvi, fiziki və mexaniki analizlər aparılır. Bu analizlərin nəticəsi həm istehlakçıya verilir, həm də zavodun arxivində saxlanılır. Əvvəllər hər iki aydan bir laborator analizlər Türkiyə Respublikasında həyata keçirilirdisə, yeni avadanlıqların quraşdırılmasından sonra bu problem aradan qaldırılmış, laboratoriyada 2013-cü ilin avqust ayında Almaniya istehsalı olan müasir avadanlıqlar quraşdırılmış, mikroskopik analizlərin zavodda fəaliyyət göstərən laboratoriyada aparılmasına əlverişli şərait yaradılmışdır.



Zavodun ətraf mühitə mənfi təsirinin minimum səviyyəyə endirilməsi üçün də bütün vacib tədbirlər həyata keçirilmişdir. Bunun üçün burada dünya standartlarına uyğun avadanlıqlar quraşdırılmışdır. İstehsalat xəttində qırma, üyütmə və nəql kimi fiziki, bişirməyə hazırlıq üçün ilkin isitmə, ilkin kalsinasiya və yekun bişirmə kimi kimyəvi proseslər nəticəsində əmələ gələn toz və tüstü xüsusi tutucularla geri qaytarılır.

Zavodun ətrafındakı ərazilərdə geniş yaşıllaşdırma tədbirləri həyata keçirilmişdir. Bu məqsədlə 12 hektarlıq əraziyə 18 min ağac əkilmiş, abadlaşdırma işləri aparılmışdır.

Yeni istehsal müəssisəsi əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayır. Zavoddakı işçilərin əksəriyyəti muxtar respublika sakini olan gənclərdir. Müəssisədə texniki təhlükəsizlik, əməyin mühafizəsi və yanğından mühafizə qaydalarına ciddi əməl olunur. Burada çalışanlar üçün normal iş şəraiti yaradılmış, onlar yüksək əməkhaqqı, xüsusi geyim formaları ilə təmin olunmuşlar.

Gündəlik istehsal gücü 800 ton olan zavodda tələbata uyğun məhsul istehsal olunub satışa çıxarılır. Yüksək keyfiyyət göstəriciləri ilə seçilən və "Naxçıvan sement" əmtəə nişanı ilə satışa çıxarılan yerli inşaat materialı obyektlərin, ayrı-ayrı beton zavodlarının vaxtında və keyfiyyətli sementlə təmin olunmasına əlverişli şərait yaratmışdır. Daxili və xarici bazarda "Naxçıvan sement"ə artan tələbatın ödənilməsi məqsədilə zavodda yeni bir layihənin həyata keçirilməsi zərurəti yaranmış, cari ildə istehsal xəttində klinker (hazır məhsul) çənləri ilə üyütmə bölməsi arasında Çin istehsalı olan avadanlıqlarla təmin olunmuş yeni bölmənin yaradılmasına başlanılmışdır. Layihənin cari ilin sonunadək başa çatdırılması nəzərdə tutulur. Yeni bölmənin istifadəyə verilməsi klinkerlərin daha kiçik formada parçalanmasına əlverişli şərait yaradacaq və üyütmə prosesinə müsbət təsir göstərəcək. Həyata keçirilən bu layihə yeni çeşiddə sement istehsalına və zavodun istehsal gücünün artmasına səbəb olacaq.

Sement Zavodu muxtar respublikamızda son 18 ilin möhtəşəm inkişaf strategiyasının nəticəsi olan daha bir nəhəng layihədir. İnanırıq ki, belə layihələrin sayı ilbəil artacaq, onlar muxtar respublikamızın iqtisadi inkişafına öz töhfələrini verəcəklər.

✍ **Kərəm HƏSƏNOV**

# Vergi partnyorluğu sazişlərinin tətbiqi vergi inzibatçılığının səmərəliliyini yüksəldəcək

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi vergi ödəyiciləri ilə münasibətlərin qarşılıqlı inam əsasında aparılmasına imkan verən çevik və işlək mexanizmlərin tətbiqində maraqlıdır. Bu məqsədlə nazirlik yaxın zamanlarda vergi ödəyiciləri ilə könüllülük əsasında partnyorluq sazişlərinin imzalanmasına başlamağı planlaşdırır. Vergi orqanları ilə vergi ödəyicisi arasında könüllü niyyət razılaşması olan bu sazişin imzalanması vergilərin düzgün və tam ödənilməsində vergi orqanlarının yükünün biznes cəmiyyəti ilə bölüşdürülməsinə, münasibətlərin qarşılıqlı əməkdaşlıq və məsuliyyət platformasında qurulmasına xidmət edir. Mövzu ilə bağlı suallarımızı nazirliyin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Mirhüseyn Seyidov cavablandırır.***

***– Mirhüseyn müəllim, artıq vergi ödəyiciləri ilə partnyorluq sazişlərinin bağlanmasına başlanılır. Əvvəlcə, belə bir suala aydınlıq gətirək: bu sazişlərin mahiyyəti nədən ibarətdir?***

– İnformasiya və kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə ticarətin, kapitalın və işçi qüvvələrinin liberallaşdırılması, biznesin təşkili və idarə olunmasının modellərinin meydana çıxması vergi inzibatçılığının qeyri-ənənəvi metodlarından istifadəni zəruri edir. Beynəlxalq təcrübə göstərir ki, vergi inzibatçılığının səmərəliliyi və büdcə mənafeyinin qorunması baxımından vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlər elə qurulmalıdır ki, mübahisəli məsələlərin minimuma endirilməsi təmin olunsun, mübahisələr yarandıqda isə onlar tərəflərin qanuni maraqları və ictimai mənafelər qorunmaqla partnyorluq münasibətləri əsasında həll edilsin. Vergitutmada partnyorluq münasibətləri vergilərin hesablanması, ödənilməsi və onlara nəzarətin həyata keçirilməsi məsələləri üzrə vergi orqanları ilə vergi ödəyiciləri arasında etibarlılığa, şəffaflığa və qarşılıqlı anlaşmaya əsaslanan razılaşmaların əldə edilməsini nəzərdə tutur. Bir çox ölkələrin təcrübəsi göstərir ki, vergi orqanları ilə vergi ödəyiciləri arasındakı münasibətlər partnyorluq və qarşılıqlı əməkdaşlıq əsasında qurulduqda vergi ödəyicilərinin işgüzar aktivliyinə, azad iqtisadi fəaliyyətinə xələl gətirilmədən mümkün olan maksimum səmərəli vergi nəzarətinin təşkili və həyata keçirilməsi təmin olunur. Vergitutmada partnyorluq münasibətlərinin tətbiq olunmasının üstünlükləri nəzərə alınaraq, bununla bağlı Vergi Məcəlləsində müvafiq dəyişikliklər edilmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, partnyorluq münasibətləri vergi ödəyicilərinin vergi yükünün azaldılmasını nəzərdə tutmur. Sadəcə olaraq, vergi ödəyiciləri bu münasibətləri qurmaqla vergiyə cəlb olunmanın xüsusiyyətlərini əvvəlcədən vergi orqanları ilə razılaşdıraraq özlərini əsassız günahlandırılmalardan sığorta etmiş olurlar. Meydana çıxan mübahisəli məsələlər isə hər iki tərəfin mənafeyi gözlənilməklə məhkəmə prosedurları tətbiq olunmadan həll edilir.

***– Hazırda partnyorluq sazişlərinin bağlanması üçün bütün hüquqi addımlar yekunlaşıbmı? Bununla bağlı vergi ödəyicilərinin məlumatlandırılması aparılırmı?***

– Nazirlər Kabineti tərəfindən "Vergi partnyorluğu sazişinin forması" və "Vergi partnyorluğu sazişinin bağlanması Qaydaları" artıq təsdiq olunmuşdur. Eyni zamanda partnyorluq sazişlərinin bağlanması üçün lazımi şəraitin yaradılması və onların tam yerinə yetirilməsinə nəzarətin təmin edilməsi üçün müvafiq işlər görülmüşdür. "Vergi partnyorluğu sazişinin forması", "Vergi partnyorluğu sazişinin bağlanması Qaydaları" və Vergi partnyorluğu sazişinin bağlanması üçün ərizə forması Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilmiş, onların tətbiqi barədə vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi üçün müvafiq tədbirlər görülmüşdür. Göründüyü kimi, vergi partnyorluğu sazişlərinin bağlanması üçün zəruri olan hüquqi və inzibati tədbirlər artıq həyata keçirilmişdir.

***– Partnyorluq sazişinin bağlanması üçün hansı meyarlar əsasdır? Şirkətlər hansı meyarlara görə seçilir?***

– Vergi partnyorluğu sazişinin bağlanması üçün müraciət edilməsi könüllüdür və bu, istənilən vergi ödəyicisinin hüququdur. Lakin Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş "Vergi partnyorluğu sazişinin bağlanması Qaydaları"na əsasən, bu qaydalara müəyyən olunmuş hallarda vergi orqanları sazişin bağlanmasından imtina edə bilər. Bunlara vergi ödəyicisinin dövlət büdcəsi qarşısında öhdəliyinin olması, vergi ödəyicisinin fəaliyyəti ilə bağlı həyata keçirilən nəzarət tədbirinin nəticəsi üzrə yekun qərarın olmaması və mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsinin müəyyən edilməsi halları aiddir. Eyni zamanda qaydalarla müəyyən olunmuşdur ki, sazişin bağlanması məqsədilə müvafiq qaydada müraciət edən vergi ödəyicilərinin seçimi zamanı sertifikatlaşdırılmış proqram təminatı ilə mühasibat uçotu aparan şəxslərə, ƏDV ödəyicilərinin və maliyyə xidmətlərini həyata keçirən kredit və sığorta təşkilatlarına, vergi ili ərzində yaranmış vergi öhdəliklərini tam və vaxtında icra edənlərə, alğı-satqı əməliyyatlarını nağdsız qaydada həyata keçirən vergi ödəyicilərinə üstünlük verilir.

***– Vergi ödəyicisi bu sazişi bağlamağa nə üçün maraqlı olmalıdır? Belə sazişi bağlamış vergi ödəyicisi üçün hansısa xüsusi güzəştlər olacaqmı?***

– Bir daha qeyd etmək istərdim ki, partnyorluq münasibətlərinin qurulması heç bir halda vergi öhdəliklərinin azaldılmasını və yaxud vergi ödəyicisi üçün hansısa xüsusi güzəştin verilməsini nəzərdə tutmur. Vergi partnyorluğu sazişi vergi risklərinin minimallaşdırılması məqsədilə vergi orqanı və vergi ödəyicisi arasında könüllü bağlanmış niyyət razılaşmasıdır. Hesab edirəm ki, belə razılaşmanın olmasında, ilk növbədə, vergi ödəyicisi maraqlı olmalıdır. Çünki vergi partnyorluğu sazişi, birinci növbədə, vergi ödəyicisinin vergidənyayınma risklərinin minimallaşdırılmasını və əlavə maliyyə itkilərinin qarşısının alınmasını nəzərdə tutur. Bununla yanaşı, qarşılıqlı etimada və məsuliyyətə əsaslanan partnyorluq sazişləri vergi orqanları ilə vergi ödəyiciləri arasında yaranan mübahisələrin minimuma endirilməsini və onların həllinə çəkilən inzibatçılıq xərclərinin hər iki tərəf üçün aşağı salınmasını təmin edir.

***– Partnyorluq prinsiplərinin tətbiqi vergi ödənişlərinin həcminin artmasına da təsir göstərəcəkmi?***

– Vergi partnyorluğu sazişlərinin tətbiqi vergi inzibatçılığının səmərəliliyinin artırılması baxımından həm də dövlət vergi orqanları üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, vergi ödəyiciləri ilə münasibətlərin qarşılıqlı etimad və məsuliyyət əsasında qurulması biznes subyektlərinin vergi orqanlarının fəaliyyətinə cəlb edilməsini, vergilərin düzgün və tam ödənilməsində dövlət vergi orqanlarının yükünün biznes cəmiyyəti ilə bölüşdürülməsini, vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılmasını, sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısının alınmasını təmin edir. Bunlar da, öz növbəsində, vergi ödəyicilərinin işgüzar fəaliyyətində aktivliyi yüksəltməklə onların gəlirlərinin, nəticə etibarilə, vergi daxilolmalarının artırılmasına imkan yaradır.

**Müsahibə üçün sağ olun.**

✍ **Səbuhi HÜSEYNOV**

Axtarışlar, tapıntılar

# Naxçıvanın Georgi kavalerləri

***Bu ilin oktyabr ayında Naxçıvan şəhərindəki, Şahbuz, Kəngərli, Culfa rayonlarındakı hərbi hissələrdə və "Naxçıvan" Sərhəd Diviziyasında cəsur süvari generalı Hüseyn xan Naxçıvanskinin – Kəngərlinin anadan olmasının 150 illik yubileyi münasibətilə keçirilən tədbirlər əsgərlərimizin çox böyük marağına səbəb olmuşdur. Bu yubiley tədbirlərinin iştirakçısı oldum.***

***Hərbçilərlə söhbətlərimizdə hiss edirdim ki, onlar "Müqəddəs Georgi" ordeni haqqında müfəssəl məlumata malik olmaq arzusundadırlar. Buna görə də bu ordenin yaranması, statusu və o ali hərbi mükafatı alan naxçıvanlı hərbçilər haqqında söhbət açmaq istəyirik.***

Dörddərəcəli "Müqəddəs Georgi" ordeni 26 noyabr 1769-cu ildə Rusiya imperatriçəsi II Yekaterina tərəfindən təsis edilmişdir. Əslində, bu ordenin adı "Müqəddəs əzabkeş və qalib Georgi ordeni" kimi yazılır. Bəzən onu "Müqəddəs şəhid və məğlubedilməz Georgi imperator hərbi ordeni" kimi də tərcümə edirlər. Bizcə, birinci variantdakı tərcümə orijinala daha uyğundur. Bu hərbi ordenin nizamnaməsində deyilir: "Şəxsən qoşuna rəhbərlik edərək düşməni çıxılmaz vəziyyətdə qoyan, onu məğlub edən və tam qələbə çalan "Müqəddəs Georgi" ordeninin kavaleri, yəni sahibi ola bilər".

"Müqəddəs Georgi" ordeni Rusiya imperiyasında bütün hərbi ordenlərin ən alisi sayılırdı. Digər hərbi ordenlər bantla və qılınclarla verilirdisə, bu, "Müqəddəs Georgi" ordeninə aid deyildi. Bu ordenin kavalerləri dövlət xəzinəsinə ömürlük haqqı ödəmirdilər. Həmin ordenin kavalerlərinin ordudan tərxis olunduqdan sonra da hərbi mundiri geymək hüquqları saxlanılırdı. "Müqəddəs Georgi" ordeninin sahibləri nəsillikcə Rusiya zadəganlarının sıralarına qəbul edilirdilər. Bu ordenin 1-ci və 2-ci dərəcələri böyük xaçla seçilirdi. Ordenin 3-cü və 4-cü dərəcələrində xaç kiçik formada idi. Rombşəkilli qızıl ulduz hər dörd dərəcəyə aid olunurdu. "Müqəddəs Georgi" ordeni mundirin sol yaxasına taxılırdı. 1844-cü ilin 9 avqustundan etibarən müsəlman kavalerlərə təqdim olunan ordendə Müqəddəs Georginin təsvirinin yerində imperatorun ikibaşlı qartalının şəkli yerləşdirildi. Çünki Müqəddəs Georgi xristian dininin şəhididir. 1782-ci ildə Georgi kavalerlərinin duması yaradılır. Bu dumada olan köhnə kavalerlər 3-cü və 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeninin yeni sahiblərini müəyyənləşdirirdilər.

1811-ci ildən bu duma Peterburqda (indiki Sankt-Peterburq) Qış Sarayının Georgi salonunda fəaliyyət göstərməyə başladı. 1849-cu ilin 11 aprelindən isə bu ordenin kavalerlərinin adları və familiyaları Moskvadakı Böyük Kreml Sarayının əzəmətli Georgi salonunda divarlarda yerləşdirilmiş xüsusi mərmər lövhələrdə qızıl hərflərlə yazılırdı. 1769-cu ildən 1885-ci ilədək 11381 zabit bu ali hərbi ordenlə təltif olunmuş və adları salondakı mərmər lövhəyə qızıl hərflərlə həkk edilmişdir. Böyük, geniş, füsunkar salonun ağ rəngi və qızıl hərfləri qeyri-adi bir gözəllik yaradır. Maraq üçün qeyd edək ki, Müqəddəs Georginin şərəfinə Gürcüstanın baş meydanında onun əzəmətli abidəsi ucaldılmışdır. Gürcüstan onun şərəfinə "Georgia" adlanır.

Rusiya dövlətçiliyinin qorunması uğrunda misilsiz igidliklər göstərmiş qəhrəman həmyerlilərimiz süvari generalı İsmayıl xan və qardaşı general-mayor II Kalbalı xan Naxçıvanskinin də adları Böyük Kremlin möhtəşəm Georgi salonunun divarındakı mərmər lövhəyə qızıl hərflərlə yazılmışdır: İsmayıl xan Ehsan xan oğlu və Kalbalı xan Ehsan xan oğlu.

Qeyd edək ki, "Müqəddəs Georgi" ordeninin adları qızıl hərflərlə yazılan birinci kavaleri 1769-cu ildə Fyodr Fabritsian, sonuncusu isə 1885-ci ildə podpolkovnik Maqsud Əlixanov – Avarski (general-mayor II Kalbalı xan Naxçıvanskinin kürəkəni) olmuşdur.

Ali hərbi orden olan "Müqəddəs Georgi"nin məşhur kavalerindən üçü naxçıvanlıdır: İsmayıl xan, qardaşı II Kalbalı xan və onun oğlu Hüseyn xan Naxçıvanskilər – Kəngərlilər. Biz onların yalnız bu ali ordeni almaları haqda məlumat verəcəyik. Çünki onların hər biri haqqında əvvəllər yazılar dərc edilmişdir.

Süvari generalı İsmayıl xan I Ehsan xan oğlu Naxçıvanski – Kəngərli (5.01.1819, Naxçıvan – 10.02.1909, Naxçıvan) 1877-ci ilin iyununda Bəyazid qalasının mühasirədə olduğu vaxt göstərdiyi nümunəvi igidliyə və təşkilatçılığına görə 31 dekabr 1877-ci ildə 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif edilmişdir. 18 avqust 1908-ci ildə İsmayıl xana süvari generalı hərbi rütbəsi verilmişdir.

General-mayor II Kalbalı xan I Ehsan xan oğlu Naxçıvanski – Kəngərli (1824, Naxçıvan – 3 aprel 1883, Naxçıvan) 17 iyul 1854-cü ildə Çınqıl təpəliklərində gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə 15 aprel 1855-ci ildə 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni almışdır. O, komandirlik etdiyi İrəvan bəy drujinası ilə misilsiz qəhrəmanlıqlar göstərmişdir.

II Kalbalı xan 14 sentyabr 1874-cü ildə süvari ordunun general-mayor hərbi rütbəsini almışdır. Qeyd edək ki, II Kalbalı xan 1877-78-ci illərdə rus-türk müharibəsindəki şücaətinə görə brilyantlarla və almazlarla bəzədilmiş "Qızıl silah"ın da kavaleri olmuşdur. 2014-cü ildə Qafqazın ən məşhur generalı II Kalbalı xanın anadan olmasının 190 ili tamam olur.

Süvari generalı Hüseyn xan II Kalbalı xan oğlu Naxçıvanski də (28.07.1863, Naxçıvan – yanvar 1919, Petroqrad) bu ali hərbi ordenin kavaleri olmuşdur. 17 dekabr 1905-ci ildə Rusiya çarının fərmanı ilə 2-ci Dağıstan polkunun komandiri, fligel-adyutant polkovnik Hüseyn xan Naxçıvanski 14 yanvar 1905-ci ildə Landunqou kəndində yaponlarla döyüşlərdə göstərdiyi igidliyinə və cəsurluğuna görə 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə mükafatlandırılmışdır. O, 22 oktyabr 1914-cü ildə Rusiya çarının digər bir fərmanı ilə 6 avqust 1914-cü ildə almanlarla aparılan döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə 3-cü dərəcəli "Müqəddəs Georgi" ordeni almışdır.

1856-cı ildən göstərişə əsasən, bu ali hərbi ordenin 1-ci və 2-ci dərəcələri qızıl xaçla, 3-cü və 4-cü dərəcələri isə gümüş xaçla hazırlanmağa başlandı.

1913-cü ildən etibarən Rusiya çarının fərmanı ilə "Georgi silahı" hərbi mükafatı təsis edildi. Bu mükafatla döyüşlərdə misilsiz şücaətlər göstərən hərbçilər təltif edilirdilər. Onların arasında üç naxçıvanlı vardır: III Kalbalı xan Cəfərqulu xan oğlu Naxçıvanski, Cəmşid xan Cəfərqulu xan oğlu Naxçıvanski və Nağı Yusif oğlu Məmmədəliyev.

III Kalbalı xan Cəfərqulu xan oğlu Naxçıvanskiyə – Kəngərliyə (20.10.1891, Naxçıvan – 1934, Maku) 15 avqust 1914-cü ildə Skokov kəndinin yaxınlığında avstriyalılarla aparılan döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə 2 may 1915-ci ildə Rusiya çarının fərmanı ilə "Georgi silahı" mükafatı verilmişdir. O, Əlahəzrətin Saray Ulan Polkunun korneti idi. Ona 1919-cu ildə polkovnik, 1920-ci ilin yanvarında isə general-mayor rütbəsi verilmişdir.

Cəmşid xan Cəfərqulu xan oğlu Naxçıvanskiyə – Kəngərliyə (09.08.1895, Naxçıvan – 26.08.1938, Moskva) Rusiya çarının fərmanı ilə 26 yanvar 1917-ci ildə 31 may 1916-cı ildə Tışkovitse kəndi ətrafında gedən döyüşlərdə iki dəfə yaralanmasına baxmayaraq, Müsəlman Süvari Polkunun 10 süvarisi ilə düşmənin piyada vzvodunu məğlub etdiyinə görə "Georgi silahı" mükafatı verilmişdir.

Qeyd edək ki, döyüşdüyü ildə Cəmşid xan Qafqaz yerli Süvari Diviziyasının tərkibindəki tatar (azərbaycanlı) süvari polkunun korneti idi. 5 dekabr 1935-ci ildə Cəmşid xana general-mayor hərbi rütbəsi verilmişdir.

13-cü Finlandiya atıcı polkunun poruçiki Nağı Yusif oğlu Məmmədəliyev də "Georgi silahı"nın sahibi olmuşdur (1895, Naxçıvan – ?).

O, 1 oktyabr 1916-cı ildə 13-cü Finlandiya atıcı polkunun nəzdində olan ikinci rotanın podporuçiki olarkən kəşfiyyatçı kimi göstərdiyi şücaətə görə Rusiya çarının fərmanı ilə 22 may 1917-ci ildə bu mükafata layiq görülmüşdür. Qeyd edək ki, bu həmyerlimiz haqqında ilk dəfə Moskvada yaşayan gənc hərbi tarixçi Eldar İsmayılov məlumat vermişdir. Bu həmyerlimizin kimliyi haqqında axtarışlarımız davam edir. Axtarışın izləri Ordubada gedib çıxır.

Bu yüksək hərbi mükafatı alanların siyahısında atası İrəvan xanlarından olan Abbasqulu xan İrəvanskinin – Qacarın oğlu Kərim xan da vardır. Onun anası Tərlan xanım süvari generalı İsmayıl xan Naxçıvanskinin qızıdır. 1918-ci ildə Naxçıvanı erməni vandallarından müdafiə edən qəhrəman döyüşçülərimizdən biri də Şərur taborunun komandiri polkovnik Kərim xan olmuşdur. O, Cəmşid xanın doğmaca dayısıdır.

Kərim xan Abbasqulu xan oğlu İrəvanski – Qacar (15.11.1885, İrəvan – oktyabr 1919, Nalçik) Qafqaz yerli Süvari Diviziyasının tərkibində olan Kabardin Süvari Polkunun dördüncü bölüyünün komandiri olarkən ştabs-rotmistr rütbəsində 8 oktyabr 1917-ci ildə döyüşlərdə fərqləndiyinə görə "Georgi silahı" ilə təltif edilmişdir.

***Azərbaycan və Rusiya hərb tarixinin məşhur kavalerlərinin Naxçıvandan olan qəhrəman eloğullarımızın hünərləri, igidlikləri bizdə qürur doğurur. Onlar həmişə Naxçıvanın şərəfini uca tutublar. Onların bu mərdlikləri və cəsurluqları işığında ciddi axtarışlarımızı davam etdiririk.***

**Musa QULİYEV**
*tarix üzrə fəlsəfə doktoru*

*Mədəniyyət insanın yaratdığı, nəsildən nəslə ötürdüyü maddi və mənəvi dəyərlərin məcmusu olmaqla cəmiyyətin inkişafında mühüm rol oynayan bir sahədir.*

# Mədəniyyətin inkişafı cəmiyyətin inkişafıdır

Bu gün müstəqil dövlətimiz özünün yeni inkişaf mərhələsindədir. Bu inkişaf mədəniyyət sahəsini də əhatə edir. Muxtar respublikamızda da mədəniyyətin inkişafına göstərilən qayğı, belə qayğı hesabına əldə edilən uğurlar göz qabağındadır və hər birimizi ürəkdən sevindirir.

Bu günlərdə Babək rayonunda bu sahədə görülən işlərlə tanışlıq zamanı bir daha yəqin etdik ki, qədim diyarımızda mədəniyyətin inkişafına qayğı dinamik xarakter alıb. Bölgədəki mədəniyyət müəssisələrinin normal fəaliyyət göstərməsini təmin etmək məqsədilə onların böyük əksəriyyəti üçün yeni binalar inşa olunub, onların maddi-texniki bazaları gücləndirilib.

"İnsan yaxşı işlədiyi kimi, yaxşı da yaşamalı, öz kökünə, tarixinə bələd olmalı, adət-ənənələrini qoruyub saxlamalı və onu daha da inkişaf etdirməli, bilik və dünyagörüşünü daim artırmalıdır. Bunun üçün də mədəniyyət sahəsinə qayğı prioritet istiqamətə çevrilməlidir". Ulu öndərimiz Heydər Əliyevin bu fikrini xatırladan rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Aybəniz Babayeva söhbətində bildirdi ki, görkəmli dövlət xadiminin milli-mənəvi dəyərlərimizin, ulu keçmişimizin öyrənilməsi ilə bağlı tarixi fəaliyyəti, nitq və çıxışları, göstəriş və tövsiyələri bizim üçün əməli fəaliyyət proqramıdır.

Şöbə müdirinin sözlərinə görə, şöbənin tabeliyində fəaliyyət göstərən 72 müəssisə öz işini günün tələbləri səviyyəsində qurmağa çalışır, bölgə sakinlərinin asudə vaxtlarının səmərəli keçirilməsinə töhfələrini verməyə səy göstərir. Rayon sakinləri Tarix-Diyarşünaslıq və Cəlil Məmmədquluzadənin Xatirə muzeylərinin və 16 mədəniyyət evinin, 36 kitabxana filialının, 12 klubun, xalq teatrının xidmətindən istifadə edir. Babəkli uşaqların musiqi sahəsində olan istedad və bacarıqlarının üzə çıxarılaraq düzgün istiqamətləndirilməsi üçün rayon mərkəzi Babək qəsəbəsində, Nehrəm, Zeynəddin, Cəhri və Şıxmahmud kəndlərində olmaqla, 5 uşaq musiqi məktəbi fəaliyyət göstərir.

2013-cü ilin muxtar respublikada "Heydər Əliyev ili" elan olunması mədəniyyət işçilərinin məsuliyyət hissini bir qədər də artırıb, müxtəlif tədbirlərin keçirilməsində onların fəallığı təmin olunub. Bu sırada ulu öndərin 90 illik yubileyi münasibətilə keçirilən tədbirləri xüsusi qeyd etmək lazımdır. Rayonun kitabxana, klub və mədəniyyət evlərində "Heydər Əliyev və milli dəyərlərimiz", "Heydər Əliyev və Azərbaycan mədəniyyəti", "Heydər Əliyev və Azərbaycançılıq", "Müstəqil Azərbaycanın memarı" və başqa mövzularda tədbirlər keçirilib, sərgilər təşkil edilib.

İlin əvvəlindən rayon və kənd mədəniyyət evlərində, klub müəssisələrində, kitabxanalarda tarixi günlər, bayramlar və yubileylər münasibətilə silsilə tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılıb. Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında mühüm rol oynayan görkəmli sənətkarlara diqqətin ifadəsi kimi təşkil olunan tədbirlər rayon sakinləri tərəfindən rəğbətlə qarşılanır. Xalq şairi Məmməd Arazın, İslam Səfərlinin, Mikayıl Müşfiqin, Ənvər Məmmədxanlının yubileyləri və xatirə günləri ilə əlaqədar müxtəlifistiqamətli tədbirlər keçirilib. Bayram günlərində rayon Mədəniyyət Evinin "Zabul" instrumental və "Şəms" muğam ansamblları, bədii özfəaliyyət kollektivi rayon ərazisindəki hərbi hissələrdə konsert proqramları ilə çıxış ediblər.

Bu gün babəkli mütaliə həvəskarları rayon kitabxanalarındakı 350 min 500 kitabdan istifadə etmək imkanı qazanıblar. Kitabxana-oxucu əlaqələrinin gücləndirilməsində yeni kitabların təbliğinin və müzakirəsinin mühüm əhəmiyyət daşıdığını unutmayan kitabxana əməkdaşları belə mədəniyyət müəssisələrinə gətirilən yeni kitabların sərgilərini təşkil edir, gənclərin vətənpərvərlik, milli-mənəvi dəyərlərə sədaqət ruhunda formalaşdırılmasında bədii təsir gücünə malik olan əsərlərin müzakirəsini diqqət mərkəzində saxlayırlar.

Rayon Mədəniyyət Evi Babək qəsəbəsinin ən gözəl və yaraşıqlı binalarından biridir. Babəklilərə böyük qayğının ifadəsi kimi müasir tələblər səviyyəsində inşa olunmuş Mədəniyyət Evinin binası lazım olan avadanlıqlarla təmin edilib, burada bir sıra dərnəklər yaradılıb. 2009-cu ildə fəaliyyətə başlayan Babək Rayon Xalq Teatrı bu dövrdə bir neçə əsər hazırlayaraq tamaşaçılara təqdim edib: B.Vahabzadənin "Yollara iz düşür", M.Əlizadənin "Şeyx Rəhmətulla", C.Cabbarlının "Solğun çiçəklər", S.Axundovun "Məhəbbət nişanəsi", H.Cavidin "Ana" əsərləri. Teatrda hazırda Bəxtiyar Vahabzadənin "İkinci səs" əsərinin stolüstü məşqləri aparılır. Yeri gəlmişkən onu da qeyd edək ki, xalq teatrının nəzdində uşaqlardan ibarət "Tumurcuq" dram dərnəyi yaradılıb. Məqsəd isə bugünkü məktəblilərdə böyük səhnəyə maraq oyatmaq və xalq teatrına kadr yetişdirməkdən ibarətdir.

Ümummilli liderimiz Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və zənginləşdirilməsi, tariximizin öyrənilməsi sahəsində tarixi xidmətlər göstərib. Həmin əvəzsiz xidmətlərdən biri də milli dəyərlərimizi təbliğ edən, tariximizin yaşadıldığı mədəniyyət müəssisələrinin yaradılması, onların fəaliyyətinin təmin edilməsidir. Bu gün ölkəmizin bütün şəhər və rayonlarında fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeylərinin böyük bir qismi ötən əsrin 70-ci illərində yaradılıb. O illərdə yaradılan Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyi gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi işində əvəzsiz rol oynayıb. Gənclər, orta məktəb şagirdləri və müəllimlər tez-tez Tarix-Diyarşünaslıq Muzeyinin qonağı olurlar. Bu mədəniyyət müəssisəsi rayonda aparılan arxeoloji tədqiqatlar zamanı ərazidən tapılan maddi-mədəniyyət nümunələri hesabına daha da zənginləşdirilib. Buraya tez-tez məktəblilərin ekskursiyaları təşkil olunur, muzeydə açıq dərslər keçilir. Ötən ilin sonlarında muzey binasında yenidənqurma işlərinə başlanılıb. Son tamamlama tədbirləri həyata keçirilən Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyinin binası bu gün-sabah qapılarını babəklilərin üzünə açacaq. Bu muzey babəklilərin və rayon mərkəzinə gələn qonaqların ən çox üz tutduqları ünvan funksiyasını yenidən yerinə yetirməyə başlayacaq.

Rayonun ərazisində 5 dünya, 41 ölkə, 83 yerli əhəmiyyətli abidələr var. Bu tarixi yadigarların qorunması, gələcək nəsillərə ötürülməsi, tədqiqi və təbliği istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Məktəblilərin belə ünvanlara ekskursiyaları təşkil olunur, maarifləndirici söhbətlər aparılır. Onlarda maddi-mədəni irsə məhəbbət hissləri formalaşdırılır.

*Babəklilər həmişə dövlətçiliyə dərin ehtiram və sədaqətləri ilə tanınmışlar. Bu gün də onlar bölgənin iqtisadi və mədəni potensialının ölkəmizin tərəqqisi naminə istifadə edilməsində əzmkarlıq nümayiş etdirirlər. Rayon Mədəniyyət və Turizm Şöbəsinin kollektivi bu prosesdə fəal iştirak etməklə milli-mədəni dəyərlərimizi öyrənmək, təbliğ etmək və zənginləşdirmək işinə öz töhfəsini verir.*

**Muxtar MƏMMƏDOV**



# Bir başqadır bu yerlərin payızı...

*Hər səhər Qapıcıq zirvəsi üstündən doğan Günəş gülümsəyir bu diyara. Qışda, yazda, yayda və payızda Haçadağ min rəng alır bu Günəşin şüaları altında. Arazın sularının axması ilə ruhumuzu oxşayan bir musiqi yayılar ətrafa, bir də Ağrıdağdan axan külək bir akkord tutar bu musiqiyə. Gecələr də Günəş Ağrı dağının arxasında gizlənər burda. Payız isə Batabatdan gələr Naxçıvana.*

Geyib yenə xəzan donun, payız gəlir. Rəssam, çək bu mənzərəni, gözəl-göyçək bir qız gəlir. Bax yenə də gur damlalar gözəl bir rəqs ifa edir, Gəmiqaya üzərində həkk olunan səhnəciklər yallı gedir...

Bir başqadır bu yerlərin payızı... Zəngəzurdan duyulanda ilk şimal küləyinin nəfəsi Günəşin gülüşləri ilıqlaşar. Öz qızıl donunu Batabat meşələrindən geyinməyə başlayar Naxçıvan, bir qızıl tac qoyar Xalxal və Payız meşələrinin başına payız. Arazın nəğmələri də bir az daha həzinləşər. Şərur düzü yayın istisindən yorulmuşdur. Onu qucaqlayar Tanrının Yer üzünə bərəkəti sayılan yağışlar, gələn ilin barını-bərəkətini gətirmək üçün insanlar torpaqları naxışlar.

Bir başqadır bu yerlərin payızı... Sədərəyin gül-çiçəyi yavaş-yavaş başını aşağı dikər. Ağrıdan əsən yellər başına sığal çəkər bu yurdun. Dalğalanar üçrəngli bayrağım qürurla: soyuqda da, yağışda da, qarda da burdayam deyə.

Bir başqadır bu yerlərin payızı... Xançoban dağlardan sürüləri endirər Arpaçay sahilinə. Arpaçay üzərində qurulan yeni stansiyaların işığı işıqlandırar payız gecələrini, tarixi qədimlərdən qədim Şərurun küçələrini. Yolun kənarındakı narbənd ağacı yenə də başını dik tutar. Güc toplamağa başlar, gələn yayın istisində insanları qorumaq üçün yeni donunun ölçüsünü deyər ana təbiətə.

Bir başqadır bu yerlərin payızı... Qıvraq, şən təbiətli, uzunömürlü insanların Vətəni Kəngərlidə bir ayrı rəng alar payız. Böyükdüzü Kəngərli süvarilərinin atları kimi çaparaq keçər küləklər. Yetincə Duz dağlarına bir az təəccüblə gəzib dolaşar buraları. Qarşısında manelər vardır. Əvvəllər olmayan ağaclar bir meşəlik yaratmaqdadır. Çöllərdən, düzlərdən aldığı tozunu, torpağını təslim edər burada məcburi.

Bir başqadır bu yerlərin payızı... Yenə də Nəqşi-Azərbaycana, Nəqşi-cahana, dünyanın bəzəyinə çevrilmiş Naxçıvana fəsillərin nazlı qızı obrazında gələr payız. Öncə Əcəmi seyrəngahına gedər öpmək üçün böyük ana Möminə xatının əlini. Qızıl ipəklərlə ilmələnmiş don verər 40 incəbelli qıza – Möminə xatın ətrafındakı ağaclara. Tanrıdan yenə daşqın olacaqmı soruşaraq müdrik baxışlarla Araza boylanan Nuhun məqbərəsini də ziyarət edər payız. Yenə də tarixi əzəmətini bərpa edən şəhərə baxar. Sonra isə Babəkə doğru yola çıxar.

Bir başqadır bu yerlərin payızı... Nehrəmdən məscid minarələrindən qalxan azan səsini dinləyib, yol alar Əshabi-Kəhfə. Cənnət bağında öz nəğməsini oxuyub qalxar Əlincəyə. Boylanıb oradan Culfaya doğru dalar düşüncəyə. Min illərin sınağından üzüağ çıxan Culfa. Yağı hücum çəkəndə Əlincə vüqarı ilə son istinadgah kimi bütün Naxçıvana dayaq çıxan Culfa. İndi dirçəlmişdir qəddi-qamətin. Heç zaman olmayıb belə zinətin, – deyib, yol alar Ordubada...

Bir başqadır bu yerlərin payızı... Bir qonaq kimi gələr bir axşamüstü Ordubada fəsillərin nazlı qızı. Ordubad limonunun ətrinə boyanmış evlərin birinin yanında ayaq saxlayar, qışa azuqələri varmı insanların görəsən? – deyib pəncərələrdən evlərə baxar, süfrələri yoxlayar. Yenə də süfrəsində bol naz-nemət, şirin-şəkər var insanların. Gülümsəyər payız. Qalxar Göygölə... Oturar gölün özünə aid sahilində və qışı "yola çıxmağının zamanıdır" deyə haraylayar bu sahildən o sahilə.

✍ **Elnur KƏLBİZADƏ**

## Araz çayında sahilbərkitmə işləri aparan traktora İran İslam Respublikası ərazisindən atəş açılmışdır

2013-cü il noyabrın 5-də saat $18^{15}$ radələrində Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Dəmirçi kəndi yaxınlığında Araz çayında sahilbərkitmə işlərini aparan traktora İran İslam Respublikası ərazisindən 2 nəfər hərbi geyimli şəxs atəş açmışdır. Həmin vaxt sürücü atəşdən yayınmaq məqsədilə özünü traktordan ataraq dambanın arxasına keçmişdir.

Ərazidə xidmət aparan sərhədçilər atəş səslərini eşidib hadisə yerinə gəlmişlər. Hadisə yerinə baxış keçirilmiş və aidiyyəti üzrə məlumat verilmişdir.

İlkin araşdırma zamanı müəyyən edilmişdir ki, atılan 7,62 millimetrlik güllələrdən ikisi traktorun radiatoruna, biri isə sürücü kabinəsinin yan hissəsinə dəymişdir. Həmçinin traktorun yerləşmə vəziyyəti və güllələrin atılma istiqaməti sübut edir ki, atəş İran İslam Respublikası ərazisindən açılmışdır.

Hadisə ilə bağlı qarşı tərəf məlumatlandırılmış və izahat tələb edilmişdir. Hal-hazırda təhqiqat-ekspertiza işləri davam etdirilir.

## "Araz-Naxçıvan" şənbə günü növbəti oyununu keçirəcək




*Şənbə günü Azərbaycan I divizionunun IX turu çərçivəsində "Araz-Naxçıvan" futbol komandası "Bakılı" futbol komandasını qəbul edəcək. Hazırda turnir cədvəlinə başçılıq edən muxtar respublika klubu bu görüşə ciddi hazırlaşır. Ötən tur səfərdə "Şahdağ"ı məğlubiyyətə uğradan qırmızı-ağlar "ev"də qələbə seriyasını davam etdirmək niyyətindədirlər.*

"Ev" oyunlarında daim hücum futbolu oynadan Əsgər Abdullayevin yenə eyni taktikanı seçəcəyi güman edilir. 4-3-3 sxeminin uğurlu alınması qırmızı-ağların qol arayışında daha aktiv olmalarına zəmin yaradır. Oyunun hazırlıqlarını davam etdirən "Araz-Naxçıvan"ın heyətində zədəli və ya cəzalı futbolçu yoxdur. Sadəcə, yarımmüdafiəçi Akif Tağıyevin sağ ayağında elə də ciddi olmayan zədə Əsgər Abdullayevi düşündürür. Həkim nəzarətində məşqlərə davam edən A.Tağıyevin "Bakılı" ilə matçda meydana çıxacağı gözlənilir.

Qeyd edək ki, noyabrın 9-da Naxçıvan Muxtar Respublika Stadionunda keçiriləcək "Araz-Naxçıvan"-"Bakılı" qarşılaşması saat $15^{00}$-də başlayacaq.

✍ **Ceyhun MƏMMƏDOV**

## Sağlamlıq imkanları məhdud uşaqlar üçün distant dərslərə və defektoloji təlim-məşğələlərə başlanılıb

*Muxtar respublikamızda məhdud fiziki imkanlıların tibbi və sosial reabilitasiyalarının təşkili, onların cəmiyyətə inteqrasiya olunması daim diqqət mərkəzindədir. Bu kateqoriyadan olan insanlara göstərilən xidmətlər günbəgün genişləndirilir və təkmilləşdirilir.*

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, oktyabrın 29-dan Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində daktilo əlifbası üzrə distant dərslərin keçilməsinə başlanılıb. Həftənin II və V günləri keçilən dərslər Bakı şəhərindəki sağlamlıq imkanları məhdud uşaqlar üçün 3 nömrəli respublika xüsusi internat məktəbinin müəllimi tərəfindən tədris olunur. Dərslərdə internet vasitəsilə uşaqlara hərf, heca, söz və cümlənin əl barmaqlarının hərəkəti ilə oxunması, eyni zamanda mimika və hərəkətlərlə özünüifadə bacarığını formalaşdıran təlimlər keçilir.

Zehni inkişafında və nitqində qüsurlar olan uşaqların da sosial reabilitasiyalarının həlli diqqət mərkəzindədir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində defektoloji bölmənin yaradılması bu diqqət və qayğının ifadəsidir. Yunancadan tərcüməsi "qüsurları bərpa etmək" olan defektologiyanın loqopediya sahəsi üzrə (düzgün nitq tərbiyəsi) noyabrın 4-dən adıçəkilən mərkəzdə təlim-məşğələlərə başlanılıb. Günün birinci yarısında keçilən təlim-məşğələlərə Naxçıvan Muxtar Respublika Mərkəzi Uşaq Xəstəxanasının, Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Uşaq Bərpa Mərkəzinin və Naxçıvan Regional İnformasiya Mərkəzinin iş təcrübəsi olan mütəxəssisləri cəlb olunublar.

Günün ikinci yarısında isə mütəxəssislərin iştirakı ilə zehni inkişafında və nitqində qüsurlar olan uşaqlara məşğələ keçilir. Təlim məşğələlərini Sumqayıt şəhərindəki evdə təhsil məktəbinin defektoloq-loqopedi Tərlan Tərlanov aparır. Məşğələnin məqsədi bu kateqoriyadan olan uşaqların reabilitasiyasını təmin etməkdir.

Treninq bir həftə davam edəcək. Gələcəkdə belə treninqlərin davamı nəzərdə tutulub.

Qeyd edək ki, mərkəzin xidmətlərindən istifadə edən sağlamlıq imkanları məhdud uşaqlara burada pulsuz iaşə xidməti də göstərilir.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Dəm qazından ehtiyatlı olaq!

*Havaların soyuması insanların istiliyə olan tələbatını artırır və nəticədə, müxtəlif isidici cihazlardan və sobalardan istifadə edilməsi zərurəti yaranır. Həmin avadanlıqlardan düzgün istifadə edilmədikdə və ya qeyri-standart sobalardan istifadə olunduqda dəm qazından zəhərlənmə halları baş verir.*

Dəm qazı yanacaq məhsullarının natamam yanması nəticəsində əmələ gəlir. Bu qaz iysiz və rəngsiz olduğundan hiss edilmir. Qapalı şəraitdə daha təhlükəli olur. Dəm qazı ilə zəhərlənmə zamanı bu əlamətlər özünü büruzə verir: gözlər yaşarır, başağrısı, başgicəllənmə müşahidə olunur. Getdikcə zəiflik, ürəkbulanması, quru öskürək, hafizənin keyləşməsi başlayır. Qıcolma tutmaları və nəhayət, tənəffüs mərkəzinin iflici nəticəsində ölüm baş verir.

Dəm qazı təhlükəsinin qarşısını almaq məqsədilə bir sıra qaydalara riayət edilməlidir. İlk olaraq yadda saxlamaq lazımdır ki, qeyri-standart, yəni kustar üsulla hazırlanmış cihazların quraşdırılması və istifadəsi təhlükəlidir. Digər cəhətdən, mənzildə qızdırıcıların havaçəkmə borularının düzgün işləməsinə nəzarət edilməlidir.

Unutmayın ki, qızdırıcı soba ilə mənzilin ölçüsü uyğun gəlməlidir. Misal üçün, mətbəx həddindən artıq kiçikdirsə və orada zəruri olan ventilyasiya sistemi quraşdırılmayıbsa, böyük ölçüdə qaz plitəsi qoymaq olmaz. Eyni qayda hamam otağına da aiddir. Otaqlarda quraşdırılmış sobanın fəaliyyətinə vaxtaşırı fasilə verilməlidir. Bu zaman otaqda havanın dəyişdirilməsi üçün pəncərələr açılmalıdır. Mənzil mütəmadi havalandırıldıqda dəm qazından zəhərlənmə riski azalır.

Soba alarkən onun zəmanət barədə sertifikatının və texniki pasportunun olub-olmamasına diqqət yetirilməlidir.

Mənzildə soba və suqızdırıcılarını quraşdırarkən mütləq yerli qaz idarəsinin mütəxəssisləri ilə məsləhətləşmək lazımdır. Bu sahədə naşı olan insanların xidmətindən istifadə olunmamalıdır. Sobaların tüstü borusu olmadıqda və ya otaq havalandırılmadıqda orada mütləq dəm qazı yaranır.

Dəm qazı ilə zəhərlənən insan əksər hallarda özü-özünə kömək edə bilmir. Lakin təcili tibbi yardım gələnədək ətrafdakılar ona ilk yardımı göstərə bilərlər. Zərərçəkəni dərhal təmiz havaya çıxarmaq, onu kürəyi üstə uzatmaq və yaxasını açmaq lazımdır.

Zərərçəkənin alın və sinəsinə soyuq kompres qoyulmalıdır. Əgər zərərçəkmişin huşu özündədirsə, o zaman ona isti çay verilməlidir. Dəm qazından yüngül zəhərlənmə olduqda, yəni zərərçəkmiş zəhərlənmə əlamətlərini vaxtında hiss edib məkanı tərk etdikdə, o zaman, sadəcə, təmiz hava ilə tənəffüs etmək yetərlidir. Zərərçəkmiş huşunu itiribsə, ona naşatır spirti ilə isladılmış pambıq parçasını iylətmək lazımdır. Naşatır spirti olmadıqda onu adi sirkəylə də əvəz etmək olar. Dəm qazından zəhərlənən insan nəfəs almırsa və ya tənəffüsü zəifdirsə, ona süni nəfəs vermək lazımdır. Zərurət olduqda ürək masajı edilməlidir. Zərərçəkmişə yardım göstərilməsi üçün təcili tibbi yardım briqadası çağırılmalıdır. Dəm qazından zəhərlənmiş insan özünü yaxşı hiss etsə belə, ən azı 24 saat həkim nəzarəti altında qalmalıdır.

***Hər hansı fövqəladə hadisə baş verdikdə "112" qaynar xəttinə müraciət edin.***

**Əbülfəz QAFAROV**
**Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 1020